*UOT 37.0*

# ŞAGİRDLƏRDƏ NİTQ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASININ NƏZƏRİ ƏSASLARI

**Nigar Xanməhəmməd qızı Kazımzadə**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0003-3006-5200
**E-mail:** nigarkazimzade2001@gmail.com

***Açar sözlər:*** *nitq mədəniyyəti, mühit, müəllim faktoru, pedaqoji-psixoloji əsaslar*
***Ключевые слова:*** *культура речи,среда, фактор учителя, педагогические и психологические основы*
***Key words:*** *speech culture, environment, the teacher factor, pedagogical and psychological foundations*

Müasir dövrdə mədəniyyət sözünə tez-tez rast gəlirik. Bu anlayış bir çox mənalarda işlənir. Azərbaycan dilinin izahlı lüğətində bu söz 3 mənada verilmişdir:

1. İnsan cəmiyyətinin istehsalatda, ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu;

2. Xalqın və ya siniflərin müəyyən dövrdə əldə etdiyi nailiyyətlərin məcmusu, belə nailiyyətlərin səviyyəsi, təsərrüfat və ya zehni fəaliyyətin inkişaf səviyyəsi;

3. Savadlılıq, elmilik, mədəni adamın tələblərinə uyğun gələn həyat şəraitinin məcmusu, yaşayış mədəniyyəti (3, s.317).

Azərbaycan dilində mədəniyyət sözünün bir termin kimi işlənməsi tarixi çox da qədim deyil. Sovet hakimiyyətinin ilk onilliklərində bu söz ərəb mənşəli olduğu üçün onu "kultura" sözü ilə əvəz etmişdilər. Bu söz latın mənşəli olub, cultura sözündəndir. Mənası tərbiyə, təhsil, inkişaf, hörmət deməkdir.

Nitq mədəniyyəti dilçiliyin praktik sahəsi olub, dildən ünsiyyət vasitəsi kimi istifadə qaydalarını öyrənir. Nitq mədəniyyətinə yaxşı yiyələnmək üçün dilin fonetik (orfoepik və orfoqrafik), leksik və qrammatik normaları bilmək və nitq zamanı onlara əməl etmək zəruridir.

Nitq mədəniyyətində dilçiliyin nəzəri ideyaları praktik şəkildə həyata keçirilir. Buna görə də nitq mədəniyyəti dilçiliyin nəzəri yox, praktik sahəsi sayılır. Nitq mədəniyyətində ayrı-ayrı dil faktları və ya hadisələri yox, dilçiliyin qayda-qanunları sistemi öyrədilir. Ümumiyyətlə, nitq mədəniyyətinin konkret predmeti yoxdur.

Hər hansı bir xalqın milli mədəniyyətinin göstəricilərindən biri də gözəl nitqdir. Gözəl nitq üçün əsas 2 şərt tələb olunur:

1. Dilin özünün ifadə imkanlarının genişliyi, yəni hər hansı bir fikri ifadə etmək imkanının olması.

2. Bu dildə danışanın yüksək hazırlığı, yəni dilin ifadə imkanlarından düzgün şəkildə istifadə etməsi.

Azərbaycan dili fonetik, leksik və qrammatik quruluşuna görə dünyanın inkişaf etmiş və zəngin dillərindən biri sayılır. Bu dil özünəməxsus musiqili ahəngi, səlisliyi və axıcılığı ilə diqqəti cəlb edir. Çox-çox qədim zamanlarda dilimizdə şifahi xalq ədəbiyyatı nümunələri, sonralar

isə yazılı ədəbiyyat yaranmışdır. İstər şifahi, istərsə də yazılı ədəbiyyatımız xalqımızın gözəl və zəngin nitq mədəniyyətinin olduğunu sübut edir.

Araşdırmalar və təcrübə göstərir ki, milli mədəniyyətinin, o cümlədən də nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısı bütövlükdə xalqdır. Xalqın hər bir nümayəndəsi nitq mədəniyyətinə dərindən yiyələnməli və onu layiqli şəkildə qorumalıdır. Bu mədəniyyəti inkişaf etdirməkdə, yaymaqda söz ustalarının böyük xidmətləri olmuşdur.

Müasir dövrdə ünsiyyət ən mühüm amillərdən biridir. Çünki insanın sosiallaşması, insan fəaliyyətinin səmərəliliyi məhz bundan asılıdır. Əsasən kiçik yaşlı məktəblilər özlərinə həm tanış olan, həm də tanış olmayan mühitdə müxtəlif fəaliyyətlərlə qarşılaşır və onlara maraq göstərirlər.

Uşaqların ünsiyyəti yalnız böyüklərin təlimatlarından deyil, həmyaşıdları ilə qarşılıqlı əlaqələrindən də formalaşır. Ünsiyyət onların düşüncə və sosial bacarıqlarının inkişafında mühüm rol oynayır

Təhsil aldıqları müddət ərzində kiçik yaşlı şagirdlərin inkişafında ən mühüm nailiyyətləri xarakterizə edən, sonrakı yaş mərhələsində onların inkişafını təmin edən və bu inkişafın təməlində dayanan psixoloji keyfiyyətlər formalaşır. Psixoloq alimlər Ə.S. Bayramov və Ə.Ə. Əlizadə qeyd edirlər ki, ibtidai məktəb yaşında "uşağın insanlarla münasibətlərinin yenidən qurulması baş verir, çünki təhsil fəaliyyətinin başlanğıcı uşağın böyüklər və həmyaşıdları ilə münasibətlərini yeni şəkildə müəyyən edir. Reallıqda sosial münasibətlərin iki sferası var: "uşaq-böyük" və "uşaq-uşaqlar". Bu sferalar bir-biri ilə qarşılıqlı əlaqədədir (4, s. 60).

Məlumdur ki, məktəb nitq inkişafı ilə bağlı şagird qarşısında yeni tələblər qoyur. Məsələn, şagird dərsdə suallara cavab verərkən onun nitqi savadlı, ifadəli, fikri isə aydın və yığcam olmalıdır. Uşaq məhz məktəbdə bu və ya digər situasiyalarda nitq etiketlərindən istifadə edir, müəllim və digər şagirdlərlə münasibət yaratmaq üçün nitqini düzgün şəkildə qurmağa çalışır. Belə ki, onlar ünsiyyət qurmağı, empatiya göstərməyi bilir, davranışlarını müəyyən dərəcədə idarə etməyi bacarır, etik davranışın əsas qaydalarına əməl edir, gündəlik həyatda, oyunda və dərsdə qarşılıqlı əlaqədə olurlar.

İbtidai sinifdə təhsil alan şagirdin nitq inkişafına onun müəllimləri, həmyaşıdları və ailəsi təsir edir. Məktəbə daxil olan uşaq tamamilə yeni bir mühitə düşür, artıq onun daimi vəzifələri olur. Belə ki, müəllimləri, ailəsi, qohumları, hətta yad insanlar uşaqla bu istiqamətdə ünsiyyət qurmağa başlayırlar. İbtidai məktəb yaşlı şagirdlərin ünsiyyət bacarıqları və vərdişləri yeni sosial şəraitdə - böyüklər tərəfindən xüsusi olaraq təşkil edilən təhsil mühitində inkişaf edir. Ona görə də bu mühitin düzgün, səmərəli qurulması vacib şərtlərdəndir.

Müstəqil Azərbaycan vətəndaşlarının nitq qabiliyyətinin inkişafında təbii ki, müəllimlərin, pedaqoqların böyük rolu vardır. Çünki hər kəs ana dilində aydın, təmiz danışmaq bacarığını müəllimlərdən öyrənir. Şagirdlər müəllimdən və onun nitqindən faydalandıqları üçün müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Hər bir sözün əsas, ilkin mənası olduğu kimi sonradan törəmə müxtəlif məna çalarları da vardır. Müəllim öz nitqində bunlardan əsas məqsədini bildirmək üçün yerli-yerində, ustalıqla istifadə etməyi bacarmalıdır. Deməli, müəllimin nitqinə verilən əsas tələblərdən biri də onun sözdən istifadə etmək bacarığıdır.

Müəllimin nitqində diqqəti cəlb edən və nitq mədəniyyətinin əsas şərtlərindən sayılan nitqin aydınlığı və dəqiqliyidir. O, biliklərin nə qədər düzgün şərh etsə də, fikrin ifadəsi üçün daha

dəqiq olan söz və ya ifadə seçməli, şagirdlərin bu və digər məsələni aydın şəkildə başa düşməsinə nail olmalıdır.

Nitqin ifadəliliyi də müəllimlik sənətinin başlıca əlamətlərindən sayıla bilər. Dil və ədəbiyyat müəllimi quru, cansız cümlələrlə danışa bilməz, onun vurğu və intonasiyadan yerli-yerində istifadəsi nitqi canlandırır, şagirdlərin qəlbində dərin izlər buraxır. Kəskin, qətiyyətli, orijinal ifadəli nitq dinləyicilərin hisslərinə təsir edir, onların marağını artırır, diqqətini cəlb edir, söylənilən fikrə onlarda maraq oyadır. Müəllimin nitqinin ifadəliliyi şagirdlərdə gələcəyə inam hissini gücləndirir, onlarda emosional-obrazlı qavramanın yaranmasına səbəb olur.

"Orta məktəb həyat üçün elə adamlar hazırlamalıdır ki, onlar öz müşahidələrini və ya istədikləri fikir və ya hissləri düzgün ifadə etməyi bacara bilsinlər; buna görə də məktəbin əsas vəzifələrindən biri də şagirdlərdə müxtəlif növ təəssürat və daxili həyəcanları ifadə edə biləcək münasib söz və ifadələr tapmaq bacarığı yaratmaqdır" (4, s. 69-70).

Təhsil dövründə şifahi mühitin təşkili şagirdlərin nitq mədəniyyətinin formalaşmasının əsas aspektidir. Şifahi mühit zehni inkişafın əsasını təşkil edir. Şifahi qarşılıqlı əlaqə tənqidi düşüncəni stimullaşdırır və anlama bacarıqlarını artırır. Müzakirələrdə, debatlarda və təqdimatlarda iştirak etmək şagirdlərə məlumatı emal etməyə, fikirlərini ifadə etməyə və düşünmə qabiliyyətlərini inkişaf etdirməyə imkan verir. Bu fəaliyyətlər şagirdlərdə bilikləri sintez etməyi, müxtəlif baxışları təhlil etməyi və ardıcıl arqumentlər qurmağı tələb edir, bununla da onların mövzunu daha dərindən qavramasını təmin edir. Bundan əlavə, şifahi fəaliyyətlərdə fəal iştirak dilin inkişafına kömək edir, şagirdlərin lüğətini genişləndirir, qrammatika və sintaksisini təkmilləşdirir. Bu koqnitiv inkişaf bütün fənlər üzrə akademik uğur üçün vacibdir, çünki güclü dil bacarıqları öyrənmə və bilik əldə etmək üçün əsasdır.

Tədqiqatlar və təcrübə göstərir ki, söz ehtiyatının zənginləşdirilməsi şagirdlərin nitq mədəniyyətinin formalaşmasında təməl daşı hesab edilir. Lüğət ünsiyyətin bünövrəsi rolunu oynayır, şagirdlərin ifadə edə bildiklərinin genişliyinə və dərinliyinə deyil, həm də onların qarşılıqlı əlaqələrinin aydınlığına və effektivliyinə təsir göstərir. Zəngin söz ehtiyatı şagirdlərin mürəkkəb fikirləri çatdırmaq, mənalı müzakirələrdə iştirak etmək, akademik və peşəkar şəraitdə fəal iştirak etmək bacarığını artırır (1, 2, 5).

Söz ehtiyatı dil biliyi və ünsiyyət bacarıqları üçün əsasdır. Yaxşı inkişaf etmiş lüğət şagirdlərə fikirlərini dəqiq ifadə etməyə, müxtəlif kontekstlərə uyğun sözlər seçməyə və dilin nüanslarını başa düşməyə imkan verir. Bu, onların mürəkkəb mətnləri oxumaq və dərk etmək, akademik diskussiyalarda iştirak etmək və müxtəlif peşəkar mühitlərdə uğur qazanmaq bacarıqlarını artırır.

Söz ehtiyatının zənginliyi idrak inkişafına da təsir edir. Sözlər düşünmək üçün vasitədir, onlar şagirdlərə təcrübələri təsnif etməyə, anlayışlar arasında əlaqə yaratmağa və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə kömək edir. Güclü lüğət məlumatın daha yaxşı qavranılmasını və saxlanmasını dəstəkləyir, şagirdlərə məzmunla dərindən məşğul olmağa və ömür boyu öyrənməyə məhəbbət bəsləməyə imkan verir.

Nitqin rabitəliliyi müəllimin natiqlik qabiliyyətinin əsas yekunu sayıla bilər. Məntiqilik, ardıcıllıq, sistemlilik, hər bir nitq sahibinin, xüsusilə müəllimin danışığında özünə möhkəm yer tutmalıdır. Müəllim öz sözünə necə başlayacağını, deyəcəyi fikirləri nə cür əlaqələndirəcəyini əvvəldən müəyyənləşdirməlidir. Mövzunun qarşı tərəfə hansı yolla çatdırılacağı və ona vuru-

lacaq yekunun söylənilən fikirlə məntiqi cəhətdən necə başlanacağını müəllim özü üçün aydınlaşdırmalıdır. Nitq prosesi ayrı-ayrı hissələrdən, detallardan ibarətdir. Bu detalların hər birinin müəllim nitqində tutduğu yer aydın olmalıdır.

Araşdırmalar göstərdi ki, qeyd edilən cəhətlərə müəllimin xüsusi diqqət yetirməsi və şagirdlərə bu məsələlərin öyrədilməsi onlarda nitq mədəniyyətinin formalaşdırılmasına əhəmiyyətli dərəcədə təsir edir.

**Problemin aktuallığı.** Şagirdlərin nitq mədəniyyətinin formalaşması problem bütün dövrlər üçün aktuallığını qoruyub saxlayacaqdır. Bu mövzunun öyrənilməsi təkcə nəzəri deyil, həmdə praktiki əhəmiyyət daşıyır. Nitq mədəniyyətinin formalaşdırılması istiqamətində aparılan elmi tədqiqatlar və tətbiq edilən metodlar şagirdlərin şəxsi və ictimai həyatlarında uğurlu inkişafına zəmin yaradır. Bu səbəbdən mövzu pedaqogika, dilçilik və psixologiya sahələrində daim aktuallığını qoruyur.

**Problemin elmi yeniliyi.** Şagirdlərin nitq mədəniyyətinin formalaşmasında mühit amili aparıcı faktorlardan biridir. Şagirdlərin nitq mədəniyyətinin formalaşdırılması mövzusunda yeni yanaşmalar pedaqoji, psixoloji və social aspektlərin inteqrasiyasını nəzərdə tutur. İnteraktiv metodlar və rəqəmsal resursların tətbiqi nitq bacarıqlarının effektiv inkişafına şərait yaradır. Milli dəyərlərin qorunması ilə yanaşı, qlobal kommunikasiya standartlarının öyrədilməsi yeni tədris modellərinin əsasını təşkil edir. Tənqidi və yaradıcı düşünmə bacarıqlarının nitq mədəniyyəti ilə əlaqələndirilməsi mövzunun elmi yeniliyini artırır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Şagirdlərin nitq mədəniyyətinin formalaşması bütün yaş dövrlərini əhatə edə bilər. Nitq mədəniyyətinin inkişafında mühit, şəxsiyyətlərarası münasibətlər, müəllim amillərinin rolu çox böyükdür.

## Ədəbiyyat

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.
2. Abdullayev N., Məmmədov Z. Müəllimin nitq mədəniyyəti. Bakı, 2001.
3. Azərbaycan dilinin izahlı lüğəti, 3-cü cild, Bakı, 2006.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə., Psixologiya dərslik, Bakı, 2002.
5. Əliyev K. Natiqlik sənəti. Bakı, 1994.

**Н.Х. Казимзаде**

## Теоретические основы формирования речевой культуры студентов
## Резюме

В наше время формирование речевой культуры у студентов является одним из главных вопросов. Вопрос овладения речью детей необходимо начинать с раннего возраста. Также важно учитывать роль педагогов и факторов окружающей среды в развитии у детей навыков правильной, беглой и выразительной речи.

**N.X.Kazimzade**

**Theoretical foundations of the formation of students' speech culture**

**Summary**

In modern times, the formation of speech culture in students is one of the main issues. The issue of children's speech acquisition should be started from an early age. Also, it is necessary to take into account the role of teachers and environmental factors during the development of correct, fluent and expressive speech skills in children.